# BMA - 100

## "BMA-100" MAGİSTR TƏLƏBƏLƏRİN RESPUBLİKA ELMİ KONFRANSI

*Gülzar MAHMUDOVA*

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 07.04.2021-ci il tarixli 31-1/23 nömrəli qərarına uyğun olaraq, 7-8 may 2021-ci ildə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100-illik yubileyi çərçivəsində "BMA-100" magistr tələbələrin Respublika elmi konfransı keçirilmişdir. Konfransda Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı Xoreoqrafiya Akademiyasının magistr tələbələri iştirak etdilər.

Konfransın açılışında Bakı Musiqi Akademiyasının tədris işləri üzrə Prorektoru, Əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru, professor Nərminə Quliyeva, BMA-nın elm və yaradıcılıq üzrə prorektoru, Əməkdar incəsənət xadimi, fəlsəfə üzrə elmlər doktoru, professor Gülnaz Abdullazadə, BMA-nın "Tarix-nəzəriyyə" fakultəsinin dekanı, sənətşünaslıq üzrə elmlər doktoru, professor Gülzar Mahmudova, "Musiqi tarixi" kafedrasının müdiri, Əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ülviyyə İmanova, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqişünaslıq" kafedrasının müdiri, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kəmilə Dadaşzadə, Bakı Xoreoqrafiya Akademiyasının elm və yaradıcılıq üzrə prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Elmira Pənahova iştirakçıları salamlayıb, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyi münasibətilə təbrik etdilər.

Konfrans maraqlı və professional səviyyədə keçdi. İki gün ərzində 17 məruzəçinin işi dinlənildi. Mövzular əhatə dairəsinin genişliyi və müxtəlifliyinə görə diqqəti cəlb edirdi. Ulu Öndər, Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı misilsiz roluna, 100-illiyi qeyd olunan BMA-nın tarixinə, dahi Azərbaycan mütəfəkkiri Nizami irsinin çağdaş dövrün incəsənətində əks-sədalarına, həmçinin müasir musiqişünaslığın problemlərinə həsr olunmuş aktual məsələlər müzakirə olundu. BMA-nın tarix-nəzəriyyə fakultəsinin dekanı, professor Gülzar Mahmudova, "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasının müdiri, Əməkdar incəsənət xadimi, professor Tariyel Məmmədov, "Musiqi nəzəriyyəsi" kafedrasının müdiri, professor Könül Nəsirova, "Musiqi tarixi" kafedrasının müdiri professor Ülviyyə İmanova, ADMİU-nin "Musiqişünaslıq" kafedrasının müdiri, professor Kamilə Dadaşzadə, BXA-nın elm və yaradıcılıq üzrə prorektoru, dosent Elmira Pənahova, BMA-nın professorları - İmruz Əfəndiyeva, Mina Hacıyeva, dosent Alyona İnyakina məruzələrin dinlənilməsində və müzakirələrdə iştirak edirdilər. Konfransda çıxış edən komissiya üzvləri təqdim olunan məruzələrin əhatəliliyini xüsusi qeyd etdilər. Ümumi fikri nəzərə alaraq, bu məruzələrin "Musiqi dünyası" jurnalında dərc olunması tövsiyə olundu.

"BMA-100" magistr tələbələrin Respublika elmi-praktiki konfransındakı məruzələr sizin diqqətinizə təqdim olunur.